**Əməkdaşlıq fəaliyyətləri**

- AQTA ilə Çex Respublikasının aidiyyəti qurumları arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində, o cümlədən Kodeks Alimentarius Komissiyası, "Bitki Mühafizəsi haqqında" Beynəlxalq Konvensiya, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı və digər aidiyyəti beynəlxalq və regional təşkilatlar çərçivəsində mütəmadi əməkdaşlıq həyata keçirilir.
- Çexiyanın qida təhlükəsizliyi sisteminin beynəlxalq standartlara və Azərbaycan Respublikasının milli qida təhlükəsizliyi sisteminə uyğunluğunu nəzərə alaraq, həmçinin aparılmış təhlillərə əsaslanaraq, Azərbaycan Respublikasının "Qida təhlükəsizliyi haqqında" Qanunundan irəli gələrək 2025-ci il 1 avqust tarixində Çexiyanın qida təhlükəsizliyinə nəzarət sisteminin ekvivalentliyinin tanınması barədə AQTA tərəfindən qərar qəbul edilmişdir. Nəticədə Çexiyanın yüksək riskli qida və yem məhsulları istehsal edən müəssisələri Agentlik tərəfindən əlavə qiymətləndirmə tədbirləri aparılmadan Çexiyada qeydiyyata alındıqdan və (və ya) təsdiq edildikdən sonra öz məhsullarını Azərbaycan Respublikasına ixrac edə biləcəklər.
- "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Çex Respublikasının Kənd Təsəsrrüfatında Sınaq və Nəzarət üzrə Mərkəzi İnstitutu arasında bitki karantini və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" tam olaraq razılaşdırılmışdır və imzalanması gözlənilir.
- 2023-cü il 3 mart tarixində Azərbaycan Respublikası Hökuməti və Çex Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın 5-ci iclası çərçivəsində Agentliyin nümayəndəsi ilə Çex Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Məhsullarının Təftişi Qurumu, eləcə də Mərkəzi Baytarlıq Administrasiyasının nümayəndələri arasında görüşlər keçirilmişdir. Görüşlərdə son dövrlər ölkəmizdə qida təhlükəsizliyi sahəsində görülən işlər və əldə olunmuş nailiyyətlər, eləcə də 2023-cü il 1 yanvar tarixindən qüvvəyə minmiş "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn yeniliklər barədə Çex Respublikasının aidiyyəti qurumlarının nümayəndələrinə məlumatlar verilmiş, yoxlamaların həyata keçirilməsi, monitorinqlərin vahid mərkəzdən elektron sistem üzrə idarə olunması, qida məhsullarının izlənilməsi, heyvanların identifikasiyası kimi mövzular ətrafında müzakirələr aparılmşdır.
- 2022-ci il 19 may tarixində AQTİ əməkdaşları Çex Respublikasında Heyvanların İdentifikasiyası və Qeydiyyat Sistemi (HİQS) üzrə təcrübə mübadiləsində iştirak ediblər. Tədbir Dünya Bankının maliyyə dəstəyi və Çexiyanın "Solitea" şirkətinin "HİQS-in Layihələndirilməsi və İnkişafı" layihəsi çərçivəsində təşkil olunub. Çexiya Dövlət Baytarlıq Administrasiyasında keçirilən görüşlərdə heyvanların identifikasiyası və qeydiyyatı sahəsində təcrübə, eləcə də elektron informasiya resurslarının tətbiqi, məlumatların izlənməsi və yenilənməsi məsələləri müzakirə olunub. Eyni zamanda, ölkəmizdə tətbiq olunan HİQS proqramının arxitekturası, funksiyaları, səlahiyyətlərin idarə olunması, texniki dəstək və sistemdəki məhdudiyyətlərə dair fikir mübadiləsi aparılıb.